**1.1 Şərtlərin və müddəaların qəbul edilməsi**
**Narimanfilm MMC www.narimanfilm.az (Veb-sayt) veb-saytının sahibi və operatorudur. "Biz", "bizim", "bizə" Narimanfilmə olan istinadlardır. Biz Azərbaycanda qeydə alınmış şirkətik, əlaqə üçün ünvanımız: AZ 1003, Azərbaycan, Bakı, F.Qurbanov küç. 13/5 (elektron poçtun ünvanı: mail@narimanfilm.az (Qaydalar və Şərtlər) bizim gizlilik siyasətimizi, bu Şərtlər və qaydalarla bir yerdə oxumalı olduğunuz son istifadəçi ilə lisenziyalı müqaviləni özündə əks etdirir.**

Sizin saytdan hər hansı bir istifadəniz, eləcə də Narimanfilm xidmətlərinin istifadəsi, sayta veb-sayt vasitəsilə və ya hər hansı bir cihaz vasitəsilə çıxışınıza baxmayaraq, şəraitdən asılı olaraq, həmişə bu "Şərtlər və Qaydalar"da verilmiş müddəalarla və bütün müvafiq qanunlarla məhdudlaşdırılır (bizimlə sizin aranızda bağlanmış məcburi hüquqi müqaviləyə görə)

Sayta girərkən və ya Narimanfilm in xidmətlərindən istifadə edərkən, siz hazırkı "Qaydalar və Şərtlər"lə razılaşmış olursunuz. Əgər siz bu qaydalar və şərtlərlə razı deyilsinizsə bu veb saytdı istifadə etməyin, Narimanfilm in xidmətlərindən istifadə etməyin.

**1.2 Qaydalarda və şərtlərdə dəyişikliklər edilməsi.**
**Biz əvvəlcədən bildiriş edərək və ya etməyərək, öz qənaətimizə görə zaman-zaman bu şərtlərdə və qeydlərdə dəyişikliklər etmək hüququnu özümüzdə saxlayırıq. Bu saytdan hər hansı bir istifadəyə və yaxud Narimanfilm hər hansı bir xidmətinin tətbiq edilən şərtlər və qaydalar cari versiyaya görə həyata keçirilir və siz Narimanfilm -in saytına daxiıl olarkən, ondan istifadə edərkən və ya xidmətlərini alarkən bu qaydaların və şərtlərin tarixə görə saytda əks olunduğunu görə bilərsiniz. Dəyişikliklər edildikdən sonra Narimanfilm -in saytından hər hansı bir şəkildə istifadə edilməsi onu göstərir ki, siz bu dəyişikliklərlə razılaşırsınız.**

**2. Ərizə qəbulundan imtina edilməsi.**
**Hər hansı bir səbəbdən Narimanfilm xidmətlərindən istifadə üçün edilən müraciətlərdən bizim imtina etmək hüququmuz vardır.**

**3. Müddəalar və şərtlər, daxil edilmiş qaydalar.**
**Bu veb-saytda və ya Narimanfilm –in hər hansı bir xidmətinə və məhsuluna aid edilən cihazda qeyd olunmuş, hər hansı müddəalar və şərtlər, əlavlər və oxşar istifadə qaydaları bu şərtlərə və müddəalara daxil edilmiş hesab olunur.**

**4. Ödənişlərdə və toplantılarda edilən dəyişikliklər.**
**Biz öz qənaitimizə görə, zaman-zaman və vaxtaşırı, Narimanfilm -in hər hansı bir xidmətinə aid ödənişlərdə və toplantılarda dəyişikliklər və ya yeni toplantılar və ödənişlər əlavə edə bilərik.**

**5. Saytdan qadağa olunmuş istifadə.**

**5.1**
**Veb-saytdan istifadə edərkən özünüzü hər hansı digər şəxsin adından təqdim etməyəcksiniz, təhqiredici tərzdə davranmayacaqsınız, hər hansı qeyri-qanuni, əxlaqsız və ya zərərli məqsədlər üçün istifadə etməyəcəksiniz. Narimanfilm veb-sayta girişi asanlaşdırmaq üçün hər bir kompyuterdə "cookie" (bu kiçik mətn faylıdır) yerləşdirir ki, onun vasitəsilə siz Narimanfilm veb-saytına daxil olursunuz. Siz yenidən Narimanfilm veb-saytına daxil olarkən bu kiçik mətn faylı sizi akkauntun sahibi kimi tanıyır və təkrar**

**parol yığmağa ehtiyac olmadan sizin öz akkautunuza daxil olmağınızı təmin edir və istifadəçini tanımaq üçün başqa heç bir yol axtarmır.**

**6. Bu veb-saytdakı material.**

**6.1. Müəlliflik hüququ.**
**Bütün materiallar (həmçinin yüklənmiş və yüklənməmiş proqram təminatı və məzmun), başqası göstərilməyibsə Narimanfilm MMC məxsusdur (və ya bizim filiallarımıa və/və ya lisenziyaçılarımıza (əgər müvafiqdirsə)). Siz razılaşaraq etiraf edirsiniz ki, materiallar dəyərli mülkiyyətdir və ya saytdan ala biləcəyiniz kontentin istifadəsinə hər hansı konkret, məhdudlaşdırılmış lisenziya istisna olmaqla belə materialları istifadə edərkən, siz bu materiallara mülkiyyət hüququ və yaxud heç bir hüquq əldə etmirsiniz. Bizim sizə təqdim olunmuş yazılı icazəmiz olmadan, bu Şərtlərdə və müddəalarda və yaxud hər hansı başqa müvafiq şərtlərdə nəzərdə tutulmuş hallar istisna olmaqla, materiallar hər hansı bir şəkildə istifadə oluna bilməz.**

Siz etiraf edir və razılaşırsınız ki, saytdakı bir neçə kontent (məzmun) kənar lisenziyaçılara məxsusdur və hər hansı mövcud hüquqlara xələl gətirmədən hər bir belə lisenziyaçının bu şərtlər və müddəalar çərçivəsində müvafiq müddəalara riayət olunmasını bilavasitə məcburi həyata keçirmək hüququ vardır.

**6.2. Ticarət nişanları.**
**Narimanfilm, Narimanfilm loqotipi, Narimanfilm bütün xidmətləri və yaxud xidmət nişanları Narimanfilm ticarət nişanlarıdır (Narimanfilm MMC). Bütün başqa ticarət nişanları, loqotiplər, təsvirlər, Veb-saytda və yaxud başqa cihazda əks olunmuş və adı çəkilmiş şirkətlərin və məhsulların adları onların müvafiq sahiblərinin mülkiyyətidir. Heç nə sizə belə materialı istifadə etmək, dəyişmək, çıxarmaq haqqı və yaxud hər hansı bir lisenziya vermir.**

**7. Başqa saytlara istinadlar/xidmətlər.**
**Biz digər saytlara daxil olmaq və ya giriş üçün xidmətlər təklif edə bilərik. Siz etiraf edirsiniz ki, hər hansı bir giriş sizin qənaitinizlə həyata keçirilir. Biz bu veb-saytların və xidmətlərin heç birini yoxlamırıq və ya təsdiq etmirik. Biz aşağıdakılara görə heç bir məsuliyyət daşımırıq: (a) mövcudluq (b) məxfilik (c) məzmun, məhsullar,mallar və onlarda mövcud olan başqa materiallar və vəsaitlər (d) digərlərinin bu veb-saytlardan və ya xidmətlərdən istifadəsinə görə.Biz habelə bu veb-saytlara və ya xidmətlərə yaranmış və ya ehtimala görə yaranmış inam nəticəsində dəyən hər hansı bir ziyan, zərər və ya xətaya görə məsuliyyət daşımırıq.**

**8. Ümumi şərtlər və müddəalar.**

**8.1. Məxfilik.**
**Biz sizin haqqınızda şəxsi məlumatı sayt vasitəsilə, sizin veb-saytdan istifadənizlə əlaqədar və Narimanfilm xidmətlərini istifadə edərkən və ya alarkən əldə edirik. Sizin haqqınızda yığdığımız bütün məlumatlar bu şərtlərin və müddəaların bir hissəsi olaraq bizim məxfilik siyasətimizin mövzusudur və bura daxil olmaq üçün bizim ana səhifəmizdən siçanı tıklayaraq bu müddəalara və şərtlərə daxil olunur.**

**8.2. Reklam kodları.**
**Veb-saytda və ya başqa cihaz vasitəsilə göstərilən hər hansı reklam kodu və ya təklifi, nə**

**keçmişdə nə də indi hər hansı başqa reklam kodu və ya təkıifi ilə birlikdə istifadə edilə bilməz.**

**8.3. Tərəfinizdən təzminatın ödənilməsi.**
**Razılaşırsınız ki, sizin Şərtləri və müddəaları hər hansı bir şəkildə pozmağınız nəticəsində və ya tətbiq olunan qanunların və ya üçüncü şəxslərin hüquqlarının siz tərəfdən pozulması ilə əlaqədar Narimanfilm, onun törəmələrini və filiallarını, direktorlarının, əməkdaşlarının, ortaqlarının, agentlərinin, podratçılarının hər birini baş verən hər hansı zərərdən, məsuliyyətdən, iddialardan, tələblərdən,ziyandan qoruyacaqsınız, ağlabatan məhkəmə xərclərini, başqa xərcləri ödəyəcəksiniz.**

**8.4. Məsuliyyətin məhdudlaşdırılması, zəmanətlərdən imtina edilməsi.**
**(a) Bu müddəada (Məsuliyyətin məhdudlaşdırılması, zəmanətlərdən imtina edilməsi) və bu Şərtlərdə və qaydalarda heç nə Narimanfilm məsuliyyətini heç bir şəkildə məhdudlaşdırmır:**

- Fırıldaqçılığa görə və ya
- Onun səhlənkarlığına səbəbi ilə ölüm və ya bədən xəsarəti almağa görə (səhlənkarlıq da daxil olmaqla 1977-ci ilin “Ədalətsiz müqavilə şərtləri haqqında” qanunun 1 maddəsində müəyyən olduğu kimi).
- Hüquq məsələsi kimi məhdudlaşdırılmayacaq dərəcədə məsuliyyət

(b) Narimanfilm xidmətləri, veb-sayt və onun məzmunu “olduğu kimi” və “açıq” əsasda təklif olunur və biz Narimanfilm xidmətlərinin aktuallığına, tamlığına, dəqiqliyinə, veb-sayta və onun məzmununa heç bir zəmanət və təminat vermirik. Biz Narimanfilm xidmətlərinin məzmununda buraxılmış hər hansı bir səhvə görə məsuliyyət daşımırıq. Bundan əlavə biz zamin dura bilmərik ki, bizim sayt vasitəsilə yayımlanan məlumat dəqiq, aktual və tamdır

(c) yuxarıda göstərilən (a) yarımbəndinə müvafiq olaraq biz, bizim səhmdarlar, direktorlar, vəzifəli şəxslər , əməkdaşlar ( bir yerdə və ayrılıqda) sizin qarşınızda və ya hər hansı üçüncü şəxs qarşısında, xüsusən, təsadüfən, birbaşa və ya dolayısıyla vurulan hər hansı ziyan və yaxud zərərə görə, əvvəlcədən bu ziyan haqqında xəbər verilib verilməməsinə, bunun nəticəsində gəlir və ya məlumat itirilməsinə baxmayaraq, bu məlumatın istifadəsi və xüsusiyyəti nəticəsində yaranan hər hansı məsuliyyət nəzəriyyəsinə görə heç bir məsuliyyət daşımırıq. Əgər hər hansı müvafiq hökumət orqanı yuxarıda sadalanan bəndlərin hər hansı bir hissəsinin hüquqi qüvvəyə malik olmadığını bildirərsə, məsuliyyət qanunvericilikdə icazə verilən maksimum dərəcədə məhdud olacaq.

(d) yuxarıda sadalanan (a), (b) və (c) yarımbəndlərini nəzərə almaqla bizim sizin qarşınızda olan maksimal məsuliyyətimiz (müqaviləyə görə, qanun pozuntusuna görə, (səhlənkarlıq da daxil olmaqla) qanunla müəyyən olunmuş öhdəliklərin pozulması və ya başqa cür) Narimanfilm xidmətlərindən istifadə və yaxud saytdan, ya da saytın hər hansı bir materialından birbaşa və ya dolayısıyla istifadə və bununla əlaqədar yaranan hər hansı iddia qarşılığında ödənilməli olan ümümi məbləğ ümumilikdə bizim saytın istifadəsinə görə sizin ödədiyiniz 1$ artıq olmamalıdır.

**8.5. Qanunvericiliyin tətbiqi.**
**Narimanfilm veb-saytı, xidmətləri Narimanfilm nəzarəti altındadır. Sizin Narimanfilm saytından istifadəniz və ya xidmətlərinin alqı-satqısı bu şərtlər və müddəalarla tənzimlənir və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq təfsir və tətbiq olunacaq. Sizin veb-saytdan istifadəniz və/və yaxud bizim təqdim etdiyimiz Narimanfilm**

xidmətlərinin istifadəsi ilə əlaqədar və ya bunların nəticəsində yaranan mübahisələr Azərbaycan Respublikasının məhkəmələrinin müstəsna yurisdiksiyasına tabedir.

8.6. Tərəfimizdən hüquq və vəzifələrin verilməsi.
Siz razılaşırsınız ki, bu Şərtlər və müddəalara görə biz hər hansı bir hüququmuzu və yaxud bütün hüquqlarımızı güzəştə getmək və/və ya yeni hüquqlar yaratmaq, subpodrat müqavilələr bağlamaq və/və ya hər hansı öhdəliklərimizi və ya bütün öhdəliklərimizi üçüncü şəxslərə vermək kimi haqlarımız var. Bu şərtlər və müddəalar hər hansı üçüncü şəxslərin xeyrinə deyil, sizinlə razılaşdırılıb və şəxsən sizin maraqlarınız üçün təyin olunub.

8.7. Hüquqların siz tərəfdən verilməsi.
Sizin Narimanfilm daki profiliniz və ya hesabınız və başqa hüquqlarınız bu şərtlər və müddəalara görə başqasına verilə bilməz, buna görə də satıla və dəyişdirilə bilməz. Bundan əlavə bu Şərtlərə və müddəalara görə siz yeni hüquqlar qəbul etmək, öz hüquqlarınızı təkrar başqalarına vermək, subpodrat müqavilələr bağlamaq, öz hüquqlarınızdan və öhdəliklərinizdən imtina etmək kimi hərəkətlərə yol verə bilməzsiniz.

8.8. Hüquqlardan imtina etməmək.
Bu Şərtlərə və müddəalara görə biz hər hansı hüquqların həyata keçirilməsini məcburən gecikdiririkirsə, tətbiq və ya təmin etmiriksə, belə gecikmə və ya imtina bu Şərtlərə və müddəalara müvafiq olaraq bu hüquqdan və ya hər hansı başqa hüquqlardan imtina etmək deyil.

8.9. Fors major hallar.
Biz Narimanfilm veb-saytında, xidmətlərində hər hansı bir çatışmazlığa, uğursuzluğa, məhsuldarlığa görə, eləcə də bu şərtlərin və müddəaların bizim tərəfimizdən yerinə yetirilib yetirilməməsində, sizin qarşınızda yalnız o halda cavabdehlik daşımırıq ki, bu da sadalanan halların bizim ağlabatan nəzarətimizdən kənarda olması ilə əlaqədar olsun.

8.10. Üçüncü şəxslərin hüquqları.
Yuxarıda sadalanan müxtəlif müddəalara müvafiq olaraq bu müddəalarda və şərtlərdə heç nə müqavilələr haqqında müddəalara müvafiq olaraq üçüncü tərəfə heç bir mənfəət gətirmir. (üçüncü şəxslər haqqında Qanun,1999-cu il). Biz 1.2.b. müvafiq olaraq, sizin və ya üçüncü şəxslərin razılığı olmadan bu Sazişin hər hansı bir müddəasını dəyişdirə, təxirə sala, güzəştə gedə bilərik və ya bütün bunlardan tamamilə imtina edə bilərik.

8.11. Sazişin tamamı.
Bu şərtlər və müddəalar (məxfilik siyasəti və hər hansı başqa şərtlər və müddəalar və ya bu şərtlər və müddəalara daxil olan istifadə qaydaları da daxil olmaqla) sazişin mövzusuna dair əvvəl bağlanmış hər hansı xüsusiyyətli, yazılı və ya şifahi halda olmasına baxmayaraq, bütün öhdəlikləri, təminatları, zəmanətləri əvəz edərək bizim aramızda olan razılığın mövzusuna dair bağlanmış tam sazişin tərkibini təşkil edir. Bu müddəalarda və şərtlərdə göstərilməmiş zaminlik və ya iddialara görə tərəflərin heç biri o birinin qarşısında məsuliyyət daşımır.

8.12. Təfsir.
Bu şərtlərdə və müddəalarda məzmun başqasını tələb etmirsə: “həmçinin”, “daxildir”, “xüsusilə”, “məsələn” və ya bu kimi ifadələrlə başlayan cümlələr illüstrativ kimi təfsir olunur və hər hansı əvvəlki sözlərin çox hissəsinin məhdudlaşdırılması kimi şərh

**edilməməlidir; tək halda olan sözlərə istinad, cəm halı da nəzərdə tutur, eləcə də kişi cinsində olan sözlərə istinadlar qadın cinsinə də aiddirlər və əksinə.**

**9. Narimanfilm ilə əlaqə.**
**Narimanfilm ilə bütün yazışmalar, o cümlədən Saytdan istifadə ilə əlaqədar, Narimanfilm xidmətlərini satın alarkən və yaxud bu şərtlər və müddəalarla bağlı bütün yarana biləcək suallar 1b. göstərilən ünvana göndərilməlidir.**